# Azərbaycan İlham Əliyevin liderliyi ilə şərəfli dövrünü yaşayır

Müxtəlif mənbələrdə və ictimai müzakirələrdə şəxsiyyətin tarixdəki rolu mövzusuna tez-tez rast gəlirik. Eyni zamanda tarixi qaynaqlardan və ya müxtəlif ölkələrdən nurlu şəxsiyyətlərə dair nümunələr gətirilir. Azərbaycan xalqı müstəsna şanslıdır ki, bizim öz nümunəmiz, daha doğrusu, tarixin parlaq şəxsiyyətlər yaratdığını göstərən nümunələr var.

Şəxsiyyət nə qədər parlaq və qeyri-adi fitri istedadlı olsa, tarixdə bir o qədər dərin iz buraxır. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev və onun siyasi varisi İlham Əliyev belə tarixi şəxsiyyətlərdirlər. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ötən 20 il ərzində ölkəmiz davamlı olaraq inkişaf edib, güclənib, regionda güc mərkəzinə çevrilib. Qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradıb. Bu amil Azərbaycanın beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli dövrünü yaşayır.

Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin yüksək səviyyədə qorunmasına xidmət etdi. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınıb. Prezident İlham Əliyev beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bildiyi üçün islamofob dairələrin və antiazərbaycançı mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozdu.

Cənab Prezidentin 20 illik fəaliyyəti dövründə bütün sahələrdə olduğu kimi, beynəlxalq müstəvidə də uğurlu siyasət həyata keçirilib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb.

Ümumiyyətlə, ötən 20 il ərzində xarici siyasət sahəsində möhtəşəm nailiyyətlərə imza atıldı. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Bundan əlavə, neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Artıq bu layihələr reallığa çevrilib. Bununla da ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan dövlətə çevrildi.

Torpaqlarımız işğaldan azad olunub, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edilib. Dövlətimizin şanlı Qələbəsini şərtləndirən bir sıra mühüm amillər var. Belə ki, son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşmış, vacib beynəlxalq sənədlər qəbul olunmuşdu. Təbii ki, bu məsələdə dövlətimizin başçısının bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini, Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin tarixi faktlara və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırması mühüm rol oynayıb. Eyni zamanda 44 günlük müharibə günlərində dünyanın nüfuzlu KİV-lərinə müsahibələr verən Prezident İlham Əliyev həm işğalçı Ermənistanın, həm də bu ölkənin xarici havadarlarının əməllərini bütün dünyaya bir daha çatdırdı.

Azərbaycan dövlətinin başçısı informasiya müharibəsində ön planda olub, bəzən ən çətin suallara əsaslandırılmış və qəti şəkildə necə cavab verməyi öz nümunəsi ilə nümayiş etdirdi. 44 günlük müharibə zamanı Prezident İlham Əliyevin nüfuzlu dünya mətbuatına müsahibələr verərək həm təcavüzkar Ermənistanın, həm də bu ölkənin xarici havadarlarının əməlləri ilə bağlı həqiqətləri üzə çıxardığını xatırlamaq kifayətdir.

Digər vacib bir məqam isə ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar hesabına Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması üçün ötən 20 ildə atılan davamlı addımlarla bağlıdır. 20 il ərzində Azərbaycan münaqişənin həlli istiqamətində siyasi müstəvidə fəallıq göstərməklə yanaşı, həm də ölkəmizin iqtisadi, hərbi gücünün artırılması istiqamətində də məqsədyönlü iş aparıb. Həyata keçirilən islahatlar respublikamızı güclü iqtisadi dayaqlara malik ölkəyə çevirib.

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzkar silahlı qüvvələrinin növbəti təxribatına Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə layiqli cavab verməsi ilə başlanan 44 günlük Vətən müharibəsində ölkəmizin tarixi qələbəsi torpaqlarımızın azad olunması uğrunda çoxillik fəaliyyətin qanunauyğun nəticəsi oldu. Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində bu il sentyabrın 19-20-də Azərbaycanın Qarabağ bölgəsində 23 saatlıq lokal antiterror əməliyyatı isə suverenliyin, ölkəmizin konstitusiya quruluşunun tam bərpasını təmin etdi, respublika ərazisində separatizmə birdəfəlik son qoyuldu. Bəzi xarici ölkələr, beynəlxalq təşkilatlar, siyasi dairələr iddia edirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, münaqişənin hərbi həlli var. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə mövqeləri güclənib və bundan sonrakı mərhələdə bu mövqe daha da möhkəmlənəcək.

Şübhəsiz ki, qarşıdakı dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan bütün sahələrdə daha möhtəşəm, əzəmətli nailiyyətlər qazanacaq. Ölkəmiz regionda yeni reallıqlar yaradıb və bu reallıqların praktiki mərhələyə keçməsi üçün əməli addımlar atır. Yeni reallıqlar isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha böyük, möhtəşəm nailiyyətlər əldə etməsinə hədəflənib.

Biz Azərbaycanın memarları - dahi övladları Heydər və İlham Əliyevlər olan bir ölkədə yaşamaqdan qürur duyur və əminik ki, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da böyük qələbələr qazanacaq və yeni-yeni zəfərlər əldə edəcək!

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini***

Azərbaycan.- 2023.- 24 dekabr, № 282.- S.7.